**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№288/5** **30 iyun 2017-ci il**

**"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə təlim strategiyası və Tədris Proqramı" barədə**

"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 12-ci maddəsinə, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 noyabr tarixli 2451 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017–2019-cu illər üçün Milli Fəaliyyət Planı"nın 5.1-ci "Auditorlar Palatası ilə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar arasında məlumat mübadiləsi və səmərəli əlaqələndirmənin təşkili" və Auditorlar Palatasının 2017-ci il üzrə İş Planının 3.9.3-cü "Auditorlar üçün PL/TM-ə qarşı mübarizə üzrə təlim strategiyasının və ona uyğun təlim proqramlarının hazırlanması və icrası məqsədilə tədbirlər görülməsi" bəndlərinin icrası ilə əlaqədar "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə təlim strategiyası və tədris proqramı"nın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə təlim strategiyası və tədris proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov, E.Behbudova) tapşırılsın ki:

- "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017–2019-cu illər üçün Milli Fəaliyyət Planı"nın icrasına dair hazırlanmış "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə təlim strategiyası və tədris proqramı"nın hesabat üçün Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına, tətbiq edilmək üçün Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə, Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasına, Azərbaycan Respublikası Mərkəzi Bankına, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına, Azərbaycan Banklar Assosiasiyasına göndərilməsi təmin edilsin;
- Auditorlar Palatası tərəfindən həmin qurumlarla birlikdə bu tədris proqramına müvafiq olaraq ödənişli əsaslarla kursların həyata keçirilməsi təmin edilsin.

3. Bu qərarın və tədris proqramının mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**